**UOT327**

# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRAN-FRANSA MÜNASİBƏTLƏRİNİN YENİ MƏRHƏLƏSİ

**Fərəh KƏRİMOVA***

***Açar sözlər:*** *İran, Fransa, Pyer Amadey Jober, Finkenşteyn müqaviləsi, Qardan*

XIX əsrin əvvəlləri Avropa ölkələrinin tarixinə, siyasi xəritəsinə böyük təsir edən bir sıra hadisələrlə əlamətdardır. Bu dövrdə Avropanın iki inkişaf etmiş, böyük dövləti İngiltərə və Fransa hegemonluq, yeni-yeni ərazilər və nüfuz dairələri əldə etmək uğrunda geniş, fəal mübarizə aparırdılar. Onların xarici siyasət xəttinin əsas istiqamətlərindən birini Hindistan məsələsi təşkil edirdi. Belə ki, İstiqlaliyyət müharibəsi nəticəsində Şimali Amerikadakı mühüm müstəmləkələrindən məhrum olduqdan sonra Böyük Britaniya kralı III Georq Hannover (1765-1820) hökumətinin əsas diqqəti "imperiyanın incisi" Hindistanda möhkəmlənməyə yönəlmişdisə, Fransa imperatoru Napoleon Bonapart (1799-1815) xarici siyasətdə Fransaya qarşı yaradılan koalisiyaların əsas təşkilatçı və iştirakçısı olan İngiltərəyə qarşı mübarizə və Hindistanın ondan qoparılması siyasəti yeridirdi. Hər iki dövlətin müstəmləkə siyasətində Yaxın Şərq regionu, xüsusilə regionun mühüm strateji əhəmiyyətli ölkəsi olan İran xüsusi yer tuturdu. İranda bu zaman türkəsilli Qacarlar sülaləsi (1796-1925) hakimiyyətdə idi. Əlverişli coğrafi mövqedə yerləşən "Məmaliki-Məhruseyi Qacariyyə" bir tərəfdən Hindistana gedən yolda "qapı" rolunu oynayırdı, digər tərəfdən Avropa sənaye məhsulları üçün mühüm satış bazarı idi. Odur ki, bu iki Avropa ölkəsi İranda nüfuz qazanmaq, bu ölkəni öz dominionlarına çevirmək uğrundabir-biri ilə mübarizə aparır, məqsədlərinə çatmaq üçün müxtəlif siyasi, diplomatik yollara əl atırdılar.

İngiltərə və Fransanın regiona maraqları Rusiyanın Xəzər dənizində möhkəmlənmək və İran körfəzinə yol açmaq məqsədilə Cənubi Qafqazda yeritdiyi ekspansiya siyasəti ilə toqquşurdu. XIX əsrin əvvəllərində İngiltərə Rusiyaya daha çox "Avropada dost, Asiyada düşmən" prinsipi ilə yanaşırdısa, Fransa-Rusiya münasibətlərinin mahiyyəti bu dövrdə Avropada mövcud olan siyasi durumdan asılı olaraq müxtəlif olmuşdur. Bu dövrdə İranın özü də Rusiya ilə müharibə şəraitində olduğundan onun üçün də İngiltərə və Fransanın simasında müttəfiq qazanmaq məsələsi mühüm əhəmiyyət kəsb edirdi. Beləliklə, XIX əsrin əvvəlləri İranın Avropa ölkələri ilə qarşılıqlı diplomatik və siyasi maraqlara əsaslanan münasibətlərinin inkişaf etdiyi dövrdür.

İranın Fransa ilə rəsmi münasibətlərinin tarixi hələ XVII əsrin əvvəllərindən – Səfəvi hökmdarı I Şah Abbas (1587-1629) və Fransa kralı XIII Lui Burbonun hakimiyyəti dövründən başlayır; bu münasibətlər kral XIV Luinin (1643-1715) və şah Sultan Hüseynin (1694-1722) dövründə daha da möhkəmlənmiş, iki ölkə arasında 1708 (ilk rəsmi müqavilə) və 1715-ci illərdə iki ticarət müqaviləsi imzalanmışdır. Lakin Səfəvilər dövlətinin tənəzzülü ilə Fransa-İran münasibətlərində böyük fasilə yaranmışdır. Yalnız XVIII əsrin sonlarından başlayaraq İran Fransanın əsasını Hindistan məsələsi təşkil edən Şərq siyasətinin bir istiqaməti olmağa başladı. 1795-ci ildə Direktoriya rejiminin göstərişi ilə o zaman İstanbulda olan iki nəfər fransız təbiətşünas alim – Jan Qvilom Bruger və An-

*AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
e-mail: m_fereh@mail.ru

toni Olivye elmi missiya adı ilə, əslində isə, İran şahını Rusiyaya qarşı ittifaqa cəlb etmək təlimatı ilə İstanbuldan İrana gəldi. Elçilər 1796-cı ilin sentyabrında Tehranda Ağa Məhəmməd şah Qacarın (1796-1797) baş vəziri Hacı İbrahim Etimadüddövlə tərəfindən qəbul edildilər. Lakin Ağa Məhəmməd şahın ölümü ilə bu elçilik nəticəsiz oldu (Əmini, 1999; 6). Misir ekspedisiyasının (1798-1799) uğursuzluğundan sonra Napoleon Bonapart Hindistana yol tapmaq üçün daha əlverişli marşrut tapmaq haqqında düşünməyə başladı ki, bu marşrut da İran ərazisindən keçirdi. 1802-ci ildə Osmanlı sultanı III Səlim və Napoleon arasında Paris sülhünün imzalanması, status-kvo elan edilməsi və Napoleonun Misir yürüşü ilə pozulan Fransa-Osmanlı münasibətlərinin bərpasından sonra Napoleon İstanbuldakı Fransa səfirliyinin müşaviri Pyer Jan Mari Raffin və Bağdaddakı Fransa konsulu Jan Fransua Xavyer Russo vasitəsilə İranla daha yaxından maraqlanmağabaşladı. Russonun özü İsfahanda anadan olmuşdu (1738) və İran ictimaiyyəti ilə geniş əlaqələri vardı (Əmini, 1999; 5).

Napoleonun Avropadakı qələbələrindən xəbərdar olan Fətəli şah Qacar da (1797-1834) Fransa ilə müttəfiq münasibətlərinin yaradılmasında maraqlı idi. Şah hökuməti hələ 1801-ci ildə İngiltərə ilə sülh və qarşılıqlı yardım haqqında biri siyasi, digəri iqtisadi məsələlərə həsr olunmuş iki müqavilə imzalamış, lakin az sonra İngiltərə əsas diqqətini Fransaya qarşı mübarizəyə yönəltdiyindən və Şərq məsələsini hələlik arxa plana keçirdiyindən qacarlarla bağladığı müqavilələrin şərtlərinə əməl etməmiş, bununlaİngiltərə-İran müqavilələri faktiki olaraq qüvvədən düşmüşdü. Odur ki, İngiltərəyə bəslədiyi ümidləri boşa çıxmış Fətəli şah Fransanın simasında yeni müttəfiq qazanmaq arzusu ilə 1804-cü ildə Napoleon Bonaparta 1805-ci ilin baharında ruslara qarşı hərbi əməliyyatlara başlamaq niyyətini ifadə etdiyi və Fransanı da İranla birgə Rusiya üzərinə hücuma başlamağa dəvət etdiyi bir məktub yolladı (Nəfisi, 1963; 118). Məktub İstanbuldakı Fransa səfirliyinin əməkdaşı Osep Vasilloviç tərəfindən fars dilinə tərcümə edilərək, Fransaya yola salındı və Napoleona 1805-ci ilin yanvarında çatdı (Nəcmi, 1993; 42). Bundan sonra Napoleon Russonun təklifi ilə 1805-ci ilin martında şərqşünas-türkoloq Pyer Amadey Joberi, apreldə isə tərcüməçisi Corc Oudri ilə birlikdə Korfu adasında (Yunanıstan) Fransa Ticarət işləri komissarı kimi çalışan hərbçi Aleksandr Romyeni İrana göndərdi. Beləliklə, Fransa-İran münasibətlərinin tarixində yeni bir mərhələ başladı.

Almaniya, Macarıstan, Transilvaniyadan keçərək apreldə Buxarestə çatan və qısa zamanda oradan da İstanbula gələn Jober burada sultan III Səlimlə görüşərək, Napoleonun ona yazdığı məktubu təqdim etdi və mayın 3-də İstanbulu tərk etdi (Jober, 1821; 2). İyulun 5-də Bəyazidə gələn Jober burada, çox güman ki, o dövrdə tez-tez yaşanan İran-Osmanlı sərhəd münaqişələri ilə bağlı Mahmud paşanın əmri ilə həbs edildi. Hələb-Bağdad yolu ilə İrana gəlməli olan Romyen isə Hələb paşası tərəfindən həbs edildi və Tehrana 1805-ci ilin sentyabrında çata bildi. O, Napoleonun 1805-ci il 30 mart tarixli məktubunu Fətəli şaha təqdim etdi. Məktubda Napoleon ölkəsinin İranla dostluq münasibətləri yaratmaq arzusunu ifadə edir, “Sizin əsgərləriniz silah hazırlamağı, sürətli və çevik hərəkət etməyi öyrəndikdə, onlara mobil artilleriya hücumuna qarşı müdafiə olunmağı öyrətmək üçün təlimlər keçdikdə, sərhədləriniz çoxsaylı qalalar tərəfindən müdafiə olunduqda və nəhayət, Xəzər dənizinin dalğalarında İran bayraqlı donanma üzdükdə sizin imperiyanız əlçatmaz və yenilməz olacaqdır” kimi ifadələrlə Xəzərdə donanma yaratmağın və sərhədyanı ərazilərdə müdafiə istehkamlarının tikintisinin zəruriliyini qeyd edirdi (8; b). Romyenin həbs həyatı, uzun və çətin səfəri zamanı möhkəm xəstələnərək sağala bilməməsi və oktyabrda Tehranda vəfat etməsi səbəbindən Fransa-İran danışıqları kəsildi. 1806-cı ilin martında 8 aylıq həbsdən azad olan Jober isə həmin ilin mayın 17-də Ərdəbilə gələrək, burada vəzir Mirzə Bozorg Qaemməqam tərəfindən təmtəraqla qarşılandı, daha sonra Fətəli şahın vəliəhdi, Azərbaycan hakimi, Naibüssəltənə Abbas Mirzə Qacar tərəfindən qəbul edildi. Abbas Mirzə fransızcanı bilsə də, Jober Osmanlı və Azərbaycan türkcəsində an-

ladığından və rahatlıqla danışa bildiyindən (Pakrəvan, 2007; 23) onunla elə türkcə danışırdı. Jober "digər Şərq şahzadələrində görmədiyi" mütərəqqi dünyagörüşünə malik bu şahzadənin öz çadırında bir fransızı qəbul etməkdən məmnun olduğunu və Avropada baş verən son hadisələr haqqında ona çoxsaylı suallar verdiyini, İranın ictimai-siyasi və hərbi-texniki geriliyindən böyük narahatlıq duyduğunu, İran ordusunun ruslar qarşısında məğlubiyyətlərinin də bu gerilikdən qaynaqlandığı fikrində olduğunu yazır (Jober, 1821; 174-176). İyunda Tehran yaxınlığında, yay ordugahı olan Sultaniyyədə Fətəli şah tərəfindən qəbul edilən Jober Napoleonun 1805-ci il 16 fevral tarixli məktubunu şaha təqdim etdi. Məktubda Napoleon İranı "Allahın öz hədiyyələrini əsirgəmədən lütf etdiyi nəcib bir ölkə", əhalisini isə "yaxşı idarəçiliyə layiq mənəviyyatlı və cəsarətli insanlar" adlandırır, Fətəli şahı "tacir millətini" (ingilisləri) dinləməməyə, ruslara qarşı mübarizəni gücləndirməyə çağırırdı. Şərqliləri (iranlıları) "cəsarətli və ağıllı" adlandıran Napoleon onların "şimal və qərblilər"lə müharibədə uğursuzluğunu "müəyyən elmlərdə naşılıq, habelə orduda nizam-intizamın çatışmazlığı" ilə əlaqələndirir, sonda "Biz xalqlarımızın güclü, zəngin və xoşbəxt yaşamasını təmin etmək üçün birlikdə çalışmalıyıq", – deyə qeyd edirdi (8; a). Fətəli şah da öz növbəsində Joberə Rusiya üzərində qələbədən sonra Fransa ordusuna Hindistana yürüş zamanı İran ərazisindən keçməyə icazə vermək və özünün də fransızlarla birgə Hindistana qoşun göndərmək fikrində olduğunu bildirdi (Kuznetsova, 1983; 35). O, həmçinin Fransa-İran hərbi ittifaqını bağlamağı təklif etsə də, Joberin səlahiyyətlərinin məhdudluğu səbəbindən buna nail olmadı. Qeyd etmək lazımdır ki, əslində, həm Romyenə, həm də Joberə geniş səlahiyyətlər verilməmiş, onlara sadəcə İranın vilayət və şəhərləri, yolları və s. haqqında, əsasən, kəşfiyyat məlumatları toplamaq, Hindistana keçid imkanlarını araşdırmaq təlimatı verilmişdi (Lavis, Rambo, 1938; 439). Joberin səfəri zamanı Fransa və Məmaliki-Məhruseyi-Qacariyyə arasında bağlanacaq müqavilənin ilkin mətni hazırlandı və onun imzalanması üçün İran nümayəndəsinin Joberlə birlikdə Fransaya göndərilməsi haqqında razılıq əldə edildi (Nəfisi, 1963; 122). Lakin Jober iqlim fərqi ilə bağlı səhhətində yaranan problemlər səbəbindən İranda çox qala bilmədi və ilin sonlarında İranı tərk etməli oldu. Fətəli şah Napoleona Joberlə göndərdiyi məktub üçün təşəkkür və Rusiyaya qarşı müharibədə Fransadan hərbi kömək almaq haqqında arzusunu ifadə etdiyi bir məktub yazaraq (1806-cı il, dekabr) Joberlə Fransaya göndərdi.

1806-cı ilin I yarısı üçün bütün Avropaya nəzarəti ələ keçirən Napoleon həmin ilin yayında general Orazi Sebastianı Osmanlı sarayına göndərərək, Rusiyaya qarşı üç dövlətin – Fransa, Osmanlı və İranın əbədi ittifaqını yaratmağı təklif etdi (Əmini, 1999; 106). Eyni zamanda 1807-ci il yanvarın 17-də Fətəli şaha yeni bir məktubla müraciət etdi. Məktubda özünün Prussiya və Polşadakı qələbələrindən bəhs edən Napoleon şahı da tezliklə Gürcüstanı və vaxtilə hakimiyyəti altında olmuş digər vilayətləri (Rusiya tərəfindən işğal edilən Azərbaycan xanlıqları nəzərdə tutulur) Rusiyadan geri alıb, öz tərkibinə qatmağa, "Xəzərin qapılarını" rusların üzünə bağlamağa çağırırdı (8; c). Fətəli şah isə öz növbəsində Napoleonla danışıqlar aparmaq, Fransa-İran münasibətlərini hüquqi müstəvidə qaydaya salmaq və iki dövlət arasında müqavilə imzalamaq üçün 1807-ci ilin əvvəllərində fövqəladə və səlahiyyətli səfir kimi Qəzvin hakimi, oğlu Məhəmmədəli Mirzənin vəziri Mirzə Məhəmməd Rza xan Qəzvininin başçılığı ilə İran nümayəndə heyətini qiymətli hədiyyələrlə Napoleonun yanına göndərdi. Heyət aprel ayında Polşaya çatdı. Bu dövrdə Napoleonun özü və Fransa rəsmiləri IV koalisiya (İngiltərə, Rusiya, Prussiya, İsveç) müharibəsi səbəbilə Polşada idi. Varşavada Joberlə görüşərək Finkenşteyn ərazisinə gələn Mirzə Məhəmməd Rza xan və heyət üzvləri aprelin 27-də Napoleonun özü tərəfindən qəbul edildi. Aparılan danışıqların nəticəsi olaraq mayın 4-də Finkenşteyndə (Şərqi Prussiya) Məmaliki-Məhruseyi-Qacariyyə ilə Fransa arasında Joberin Fətəli şahla görüşü zamanı tərtib edilən mətn əsasında 16 maddədən ibarət müqavilə imzalandı. Bu müqavilə ilə

bağlı diqqət çəkən məqam onun qacarların öz doğma dilində – Azərbaycan türkcəsində (ərəb əlifbası ilə) yazılmasıdır. Qacarların hakimiyyəti dövründə Azərbaycan dili məsələsinə xüsusi önəm verildiyi, şifahi sferada Azərbaycan dilinin əsas yer tutduğu, fars dilinin isə, əsasən, kargüzarlıqda istifadə edildiyi məlumdur. Qacarların o dövrədək imzaladığı müqavilələrin (1801-ci il İngiltərə-İran Siyasi və Ticarət müqavilələri), həmçinin Fətəli şahın və Abbas Mirzənin Napoleonla məktublaşmalarının fars dilində olduğu halda, Fransa ilə bağlanmış bu müqavilənin Azərbaycan dilində tərtib olunması maraq doğurur. Yuxarıda da qeyd edildiyi kimi, Jober şərqünas-türkoloq idi. Çox güman ki, Jober Azərbaycan türkcəsini bildiyindən "qarşısındakı elçi ilə tərcüməçi olmadan danışmaqdan məmnun qalan Fətəli şah" (Jober, 1821; 231) sənədi də elə bu dildə tərtib etdirmişdir. Bu müqavilə sənədi qacarların öz dillərində rəsmi sənəd hazırlamaq sahəsində ilk təşəbbüsü idi. Lakin, təəssüf ki, sonralar bu ənənə davam etdirilmədi. Müqavilənin fransız dilində olan mətninin sonunda Fransa Xarici işlər naziri Taleyranın imzası ilə "əsli ilə düzdür" ifadəsi (Əmini, 1999; 208) qeyd olunub ki, bu da orijinal mətnin Azərbaycan dilindəki mətn olduğunu, fransız dilində olan mətnin də onun əsasında hazırlandığını deməyə əsas verir. Bu sənədə Fransa Xarici siyasət idarəsinin sənədləri arasında rast gəlmək mümkündür. Azərbaycan dilində olan mətn isə hazırda Fransa Tarix muzeyində saxlanılır. (10)

Finkenşteyn müqaviləsini İran tərəfindən Mirzə Məhəmməd Rza xan, Fransa tərəfindən Dövlət katibi, Bassano hersoqu Bernard Mare imzaladı. Müqavilənin I maddəsində "Fransa imperatoru və İtaliya padşahı cənabları" və "İran şahı-səadətgah cənabları" arasında sülh, məhəbbət və ittifaq elan olunduğu bildirilirdi. Daha sonra Napoleon İranın ərazi bütövlüyünə zəmanət verir (II maddə), onun Gürcüstanın üzərində hakimlik hüququnu tanıyır (III maddə), Rusiyanı öz qoşunlarını Gürcüstan və bütün İran torpaqlarından (Rusiya tərəfindən işğal edilmiş Azərbaycan xanlıqları nəzərdə tutulur) çıxarmağa məcbur etməyi öhdəsinə götürürdü (IV maddə). Müqavilənin V maddəsində iki ölkənin daimi səfirliklərinin bir-birinin ərazisində fəaliyyət göstərəcəyi, VI-VII maddələrdə Fransanın İrana öz ordusunu, artilleriya və müdafiə qalalarını Fransa qaydası ilə yenidən qurmaq üçün lazımi miqdarda silah, artilleriya, həmçinin orduya təlim keçmək və hərbi istehkamların tikintisini həyata keçirmək üçün öz mühəndislərini göndərəcəyi bildirilirdi. VIII maddədə İran şahı İngiltərə ilə bütün ticarət və diplomatik münasibətləri kəsmək və ona müharibə elan etmək, öz səfirini geri çağırmaq, ingilis tacirlərini və konsullarını ölkədən çıxarmaq və sonuncuların mallarını müsadirə etmək haqqında fərman verməyi öhdəsinə götürürdü. IX maddədə Rusiya və İngiltərənin İran və Fransa əleyhinə ittifaqa girəcəyi halda sonuncuların da onlara qarşı ittifaq yaradaraq, üzərlərinə hərəkət edəcəkləri bildirilirdi. X maddədə İran şahı əfqanlarla birlikdə ingilislərə qarşı çıxmaq və Hindistana birgə qoşun göndərmək üçün təsir edəcəyini, XI maddədə fransız donanmasını İran körfəzi və limanlarına buraxmağı, XII maddədə Napoleonun quru yolla Hindistana yürüş etmək istədiyi halda, onun İran ərazisindən keçməsinə icazə verməyi, Fransa qoşununu ərzaqla təmin etməli və Fars körfəzinin limanlarını fransız eskadrası üçün açmağı öhdəsinə götürürdü. Bunun üçün əvvəlcədən tərəflər arasında bir "əhdnamə" bağlanmalı, bu əhdnamədə tədarük məsələləri, İran tərəfindən göndəriləcək qüvvənin miqdarı məsələləri əks olunmalı idi. Müqavilənin digər maddələrində İran donanmasına və qoşunlarına göndərilən malların İran qiyməti ilə hesablanması (XIII maddə), 10-cu maddənin şərtlərinin sadəcə Fransaya aid edilməsi (XIV maddə), tacirlərin və dövlətin mənafeyi üçün Tehranda ticarət müqaviləsinin imzalanması (XV maddə) və nəhayət, "Əhdnameyi-humayunun" maddələrinin 4 ay sonra Tehran Darüssəltənəsində bir-birilə mübadilə olunacağı (XV maddə) bildirilirdi (10). Göründüyü kimi, müqavilənin maddələri rus və ingilislərə qarşı yönəlmişdi.

Napoleon müqavilənin imzalanmasından bir gün sonra – mayın 5-də Fətəli şaha məktub göndərərək, “şahın elçisi Mirzə Məhəmməd Rza bəyi qəbul etdiyini və orada olduğu müddətdə davranışından razı qaldığını”, “öz nazirinə onunla ittifaq müqaviləsi bağlamaq haqqında göstəriş verdiyini” və “öz əlləri ilə imzaladığı və imperator möhürü ilə təsdiq etdiyi müqavilənin İran paytaxtında mübadilə olunacağını”, “bu müqavilənin onların düşmənlərini ümidsizliyə düçar edəcəyini” qeyd edirdi (8; e).

***Finkenşteyn müqaviləsinin Azərbaycan dilində mətni***



*Fransə imperatoru və İtalya padşahı cənabları və İran şahi səadətgah cənabları ettehad əhdnaməsi ilə məhəbbətin binalarnı məsbut etməsini xahiş idub, bənaənleyh ruxsəti kamilə ilə ruxsətguzarlar təyin edib, yəni*
*Fransə imperatoru və İtalya padşahı tərəfindən devlətin vəziri və sərkatebi əzəm, çələngi humayun ilə və Bavir və Bad devlətləri nişanları ilə müşərrəf olan Müsyö Rehük Bernar Mare nam məmur,*
*Və İran şahi sahebi dəstgah və səadətgah tərəflərindən səfiri binəziri alicah və rəfətgah Mirzə Məhəmməd Riza Xan Ğəzvin şəhrinin nazeri və Məhəmmədəli Mirzə həzrətlərin vəziri və muşar iləyha ruxsətnamələrini təbdil eylədikdən sonra ədnada məşruh olan maddələri rəbt etmişlər.*

***Maddə 1***

*Fransə imperatoru və İtalya padşahı cənabları və İran şahi səadətləri mabeynində sülh və məhəbbət və ettehad inşallah təala müstədam olsun.*

***Maddə 2***
*Fransə imperatoru və İtalya padşahı cənabları İran*

*şah cənablarının devlətində olan mülklərin hərasətinə kəfildir.*

***Maddə 3***
*Görcestan eğliminin hələlən İran şahının mülki olduğu Fransə imperatoru və İtalya padşahına muşəxxəs və məlumdur.*



اولدیغی فرانسه ایمپراطوری وایطالیه پادشاهی
مشخص ومعلومدر

ماده ٤

فرانسه ایمپراطور وایطالیه پادشاه روسیه دولتی
گورجستاندن اخراجه وبتون ایران خاکندن اخراج
وترکنه مجبور ایلملری ایچون ومستقبل عهدنامه ده
ایشبو شرطک مخصوص تضمینی ایچون تماما وکاملا
جهد ایدرم دیو تعهد ایلیور چونکه بو ماده دایما
ایمپراطور مشار الیه جنابلرینک دولت ایشلرنده
وعالی همتنده در

ماده ٥

فرانسه ایمپراطور وایطالیه پادشاه طرفلرندن
بر سفیر رخصتگزار متعین ایران شاهک
در سعادتنده مقیم اولسون

ماده ٦

ایران پادشاه جنابلرینک پیاده عساکرینی وطوپلرینی
وقلعه لری فرنک معرفتی اوزره تعلیم وترتیبنه
اشتیاقی بلدروب فرانسه ایمپراطور وایطالیه پادشاه
جنابلری بوکا بنا طوپ سفریه وحربلو تفنک
شاه طرفنده لازم اولان نه قدر مطلوب اولورسه
ارساله تعهد ایلیور وبو سلاحلرک قیمتی فرنکستان
قیمتیله مدفوع اولنه

ماده ٧

ایران دولتنک قلعه لری فرنک عادتی اوزره
تحصین وطوپخانه لری ترتیب وپیاده عسکری
تعلیم اتمک ایچون طوپچی ومهندس وتعلیمچی معتبر

***Maddə 4***

*Fransə imperatoru və İtalya padşahı Rusyə devlətini Görcestandan ixraca və bütün İran xakından ixrac və tərkinə məcbur eyləmələri içün və müstəğbəl əhdnamədə işbu şərtin məxsus təzmini içün təmamən və küllən cəhd edərəm deyə, təəhhüd eyləyir çünke bu maddə daiymən imperatori muşarileyhə cənablarının devlət işlərində və ali himmətindədir.*

***Maddə 5***

*Fransə imperatoru və İtalya padşahı tərəflərindən bir səfiri ruxsətguzari mütəəyyin İran şahının dəri səadətində muğim olsun.*

***Maddə 6***

*İran padşahı cənablarının piyadə əsakirini və toplarını və ğələlələrini Firəng mərifəti üzrə təlim və tərtibinə iştiyağini bildirib, Fransə imperatoru və İtalya padşah cənabları buna bənaən topi səfəriyyə və hərbli tüfəng şah tərəfində lazem olan nə ğədər mətlub olursa irsalına təəhhüd eyləyir və bu silahların ğiyməti Firəngistan ğiymətilə mədfu oluna.*

***Maddə 7***

*İran devlətinin ğələləri Firəng adəti uzrə təhsin və topxanələri tərtib və piyadə əskərini təlim etmək içün topçu və muhəndis və təlimçi mötəbər ofisiyallarından İran padşahı cənablarına nə meğdar münasib görərlərsə irsal etməsinə Fransə imperatoru və İtalya padşahı təəhhüd edər.*



**Maddə 8**

*İran padşahı kəndi tərəfindən Engeltərə ilə hər vəchilə mukatebə və muraselə ğət eyləməsinə və halən məzkur tayfəyə səfər açmasına və düşmənlik üzrə hərəkət etməsinə təahhüd eyləyib bənaənleyh mərsul olan şahın səfiri rücuuna əmr oluna. Engeliz konpanyası tərəfindən İranda və bəndərlərində muğim olan balyosları və sayir vukəlası iğamətlərindən filhal mərdud ola və engeliz malları və mətaələrini zəbt etməsinə və ticarətləri bərrən və bəhrən ğət etməsinə padşahanə fərman oluna və bu səfərin vəğtində Engeltərə tərəfindən səfarət içün və yaxud digər bəhanasiylə gələni mərdud ola.*

**Maddə 9**

*Filmüstəğbəl əgər Rusyə və Engeliz devlətləri İran və Fransə devlətləri üzərinə ettefağ edərlər isə Fransə və İran devlətləri dəxi ettefağ və ettehad üzrə olsunlar. İşbu iki devlətlərin birisinin tərəfindən ədavət zuhur edərsə ol birinə rəsmən xəbər və dendiyi kibi düşmən üzərinə hərəkət oluna, o əsnadə əla maddədə şərh olunan vəchilə əməl oluna.*



**Maddə 10**

*İran padşahı Əfğan tayifəsilə və sayer Ğəndhar tayifələri ilə ettefağ edub və məmləkətlərindən ubur və muşəxxəs olduğunda Hendestanda engelizlərin yədində olan məmləkətləri təsxir etmək içün engeliz üzərinə təmşiəyi əsakir oluna.*

**Maddə 11**

*Əgər fransezlərin bir donanması İran dəryasında və İran bəndərlərində zühur edərsə eğteza üzrə olan təshilat və müavenət və məhəbbəti kamilə ilə məğbul olsun.*

***Maddə 12***

*Hendestandakı Engeliz məmləkətlərinə hücum etmək için ğaradən bir ləşkər irsal etməsi Fransə imperatorunun niyyətlərində isə ettehad üzrə İran padşahı ləşkəri məzkuri kəndi toprağından uburi versin vəlakin öylə əsnadə muğəddəmən iki devlətlər mabeynində məxsus əhdnamə mərbut olunub və məzkur əhdnamədə nə raheni mutəvəcceh olacağları və nə vəch ilə zəxayer və mərahelat için tədarük görəcəkləri və nə meğdar İran əskərindən bərabər irsalın İran devlətinə münasib olacağları bu məzkur əhdnamədə təfsilən məşruh olsun.*


وجه ایله ذخایر و مراحلات ایچون تدارك كوره جك
لری و نه مقدار ایران عسكرندن برابر ارسال
ایران دولتنه مناسب اولجقلری بو مذكور عهدنامه ده
تفصیلا مشروح اولسون
ماده ١٣
بوندن اعلاكی ماده لرك موجبنجه یاخود دونانمه لره
ویاخود عسكرلره هر شیئ كه ویررلرسه ایران اهلنه
كبی قیمتی و بهاسی ایله ویرلسون
ماده ١٤
بوندن اعلا اونجی ماده سنده مذكور اولان
شرطلری فرانسه دولتنه مشخص اولسون
بناء علیه نه انكلترا و نه روسیه دولتلرینه ایشبو
شرطلر هیچ بر یرده مربوط اولمسون
ماده ١٥
تجار امورلری ایچون و دولتین انتفاعی ایچون
تجارته متعلق بر عهدنامه تهرانده مربوط اولسون
ماده ١٦
انشاالله تعالی ایشبو عهدنامه همایونك رضانامه لری
ایشبو تاریخ دورت آیدن صكره تهرانده تبدیل اولنه
محررا ایمپراطور اعظمك اوردوسنده فنكستن نام فی صفر ١٢٢٢

***Maddə 13***

*Bundan əlakı maddələrin movcibincə yaxud donanmalara və yaxud əskərlərə hər şey ki verərlərsə İran əhlinə gibi ğiyməti və bəhası ilə verilsin.*

***Maddə 14***

*Bundan əla onuncu maddəsində məzkur olan şərtləri Fransə devlətinə muşəxxəs olsun. Bənaənleyh nə Engeltərə və nə Rusyə devlətlərinə işbu şərtlər heç bir yerdə mərbut olmasın.*

***Maddə 15***

*Tüccarın umurları için və devlətin intifai için ticarətə mütəalleğ bir əhdnamə Tehranda mərbut olsun.*

***Maddə 16***

*İnşallah təala işbu əhdnameyi humayunun rezanaməları işbu tarix dört aydan sonra Tehranda təbdil olsun.*

*Muhərrən imperatori əzəmin ordusunda Finkeştən nam fi səfər 1222*

Hələ müqavilənin imzalanmasından bir neçə gün əvvəl – aprelin 30-da Napoleponun 12 aprel tarixli etimadnaməsi əsasında kavaleriya generalı Klod Matye Qardanın başçılıq etdiyi fransız nümayəndə heyəti Finkenşteyni tərk edərək, İrana yola düşdü. Napoleon Fətəli şaha göndərdiyi 1807-ci il 20 aprel tarixli məktubunda Qardanın İrana göndəriləcəyi haqda məlumat vermişdi (8; d). General Qardan vaxtilə XIV Lui Burbonun şah Sultan Hüseynin sarayında səfiri olmuş Anje de Qardanın böyük oğlu idi. İmperatorun Qardanın adına verdiyi 10 may 1807-ci il tarixli təlimat bu missiyanın əsl məqsədini aydın göstərir. Belə ki, imperator "sizin ilk işiniz əlimizdə haqqında heç bir müfəssəl məlumat olmayan bu ölkəni tanımaq, bu ölkənin coğrafiyası, topoqrafiyası, sahilləri, əhalisi, maliyyəsi, hərbi vəziyyəti haqqında axtarışlar olsun. İran Rusiyanı özünün təbii düşməni sayır. Çünki onlar Gürcüstanı onun əlindən almış, ən gözəl vilayətlərini təhlükə altına almışlar. Onlar hazırki sülalənin hakimiyyətini hələ də tanımayıblar", – deyə yazır, Qardana "Rusiya ilə İran arasında düşmənçilik münasibətlərini gücləndirmək üçün ciddi fəaliyyət göstərməli, Rusiya ilə hərbi əməliyyatları aparmaq üçün İrana lazımi təlimatları öyrətməli " olduğunu bildirirdi (8; e).

Sentyabrda İstanbula çatan Qardan 14 noyabrda Təbrizə, 4 dekabrda isə Tehrana daxil oldu. Qardan heyətinin tərkibi 15 sivil şəxs (3 katib, 6 mütərcim, 1 fizik, 3 missioner, 1 memar, 1 attaşe) və 13 hərçidən (Əmini, 1999; 127) ibarət idi. Dekabrın 7-də heyət üzvləri Fətəli şah və Sədrəzəm Mirzə Məhəmməd Şəfi Mazandarani tərəfindən qəbul edildi. Qardan şah tərəfindən "xan" titulu və "Şiru-xurşid" ordeni ilə mükafatlandırıldı (Nəcmi, 1993; 48). Dekabrın 20-də Finkenşteyn müqaviləsi Fətəli şah tərəfindən ratifikasiya olundu. Ratifikasiya zamanı müqaviləyə onun 3 və 4-cü maddələrinin yerinə yetirilməsindən, yəni Gürcüstanın İrana qaytarılmasının təmin edilməsindən sonra İran körfəzindəki Xarq adasının fransızlara güzəştə gedilməsini və sonuncuya Buşir və Homburnda öz faktoriyalarını tikməyə icazə verilməsini nəzərdə tutan bir maddə də əlavə edildi (Lavis, Rambo,1938; 440). Bundan başqa, şahın 1808-ci il 26 yanvar tarixli fərmanı ilə Qardan və Mirzə Şəfi arasında 1708 və 1715-ci illər müqavilələrinin əsasında ticarət müqaviləsi də imzalandı. 23 maddədən ibarət bu müqaviləyə görə fransızlara İran ərazisində müstəsna hüquqlar verilirdi; onlar İranın istənilən şəhərində konsulluqlar aça, torpaq sahələri ala bilərdilər; həmçinin fransız katolik din xadimləri İran xristianları arasında azad şəkildə təbliğat aparmaq hüququ qazanırdılar; fransız tacirlərinə isə İrana istədikləri malları idxal-ixrac etmək azadlığı verilirdi, onlar 3 il müddətinə vergilərdən azad olunacaq, bu müddət bitdikdən sonra isə cəmi 3 faiz vergi ödəyəcəkdilər (Kuznetsova, 1983; 36). Bu ticarət müqaviləsi İranın XIX əsrdə Avropa ölkələri ilə bağladığı və xaricilərin eksterritoriallıq və kapitulyasiya hüququnu tanıyan ilk müqavilə idi (İvanov, 1977; 227).

Bu müqavilələrdən başqa, 1808-ci il yanvarın 21-də Qardan və Mirzə Şəfi tərəfindən 6 maddədən ibarət daha bir hərbi müqavilə də imzalandı. Bu müqavilədə "İrana Əlahəzrət imperator və İtaliya padşahının cəbbəxanasından 20000 süngülü tüfəng gətirilməsi, onların hər birinin qiymətinin 1 tümən və 5000 Təbriz dinarı qiymətində hesablanması və Dövləte-Aliye-İrana təqdim edilməsi (I maddə) nəzərdə tutulurdu. Müqavilənin şərtinə əsasən bu silahlar Fransa dövlətinə məxsus gəmilərlə Oman dənizi vasitəsilə Buşəhr limanına gətirilib, İrana təhvil verilməli idi, gəmilərin hərəkəti zamanı hər hansı maneə yaranardısa, onlar digər limanlara yan alıb lövbər salmalı idilər (II maddə). Gəmi kapitanları tərəfindən təyin edilən iş icraçıları tüfənglərin İran dövlətinə təhvil verilməsini təmin etməli idi (III maddə). Tüfənglərin təhvil verilməsi zamanı gəmi kapitanları onların qiyməti (İran qiyməti ilə 3000 tümən və Fransa qiyməti ilə 600000 frank) barədə qəbz tərtib edib İran tərəfinə təqdim etməli idilər, onların haqları isə ya nağd pul formasında ödənməli, ya da özləri arzu edərlərsə, pul əvəzinə ərzaqla təmin edilməli idilər (IV maddə). İş icraçıları qanuni qaydada razılaşmanın mətnini hər iki tərəfin dilində tərtib etməli idilər, bir əlavə nüsxə də tərtib olunmalı və

İrandakı Fransa səfirliyinin dəftərxanasında saxlanmalı idi (V maddə). Nəhayət, sonuncu – VI maddədə Fətəli şahın Fransa imperatorundan İrana müxtəlif peşə sahələri üzrə (mahud toxuyucuları, nəqqaş, kitab çapçısı, billur yonan və cilalayan, saatsaz, zərgər, daşyonan, barıt, araba, çini, çit istehsalçıları, dəmirçi, dülgər, mədənçi) mütəxəssislər qrupu göndərmək haqqında xahişi əks olunurdu. Göndəriləcək mütəxəssislərin məvacibi isə sənət sahələrinə uyğun olmaqla, İran şahının xəzinəsindən ödənilməli idi (Nəfisi, 1963; 150-151; 13).

***1808-ci il 21 yanvar müqaviləsi***



Qardan heyəti qacar İranına gəlmiş ilk Avropa hərbi missiyası idi (Nəfisi, 1963; 162). Onun gəlişi Abbas Mirzəyə ölkəsində də Osmanlı imperiyasında həyata keçirilən “nizami-cədid” islahatı nümunəsində islahatlar keçirmək təşəbbüsünü reallaşdırmaq imkanı verdi. Bu islahatların çoxu Azərbaycan ərazisini əhatə edirdi. Bu, həmin ərazinin Rusiya ilə müharibələrdə ön cəbhə rolunu oynaması ilə bağlı idi. Missiya üzvlərindən Kapitan Verdiye və Lami 3 serjant və tərcüməçi ilə birlikdə Təbrizə Abbas Mirzənin yanına göndərildi. Verdiye Təbrizdə olduğu 14 ay müddətində 4-6 min nəfərlik 3 piyada batalyonunun Avropa qaydasında yenidən təşkil edilməsinə nail oldu. Sərbaz dəstələri Fransa istehsalı olan muşketlərlə silahlandırıldı və onlara fransız hərbi uniforması geyindirildi. Kapitan Lami kazarmalar, hərbi arsenal, dəyirman, silah istehsalı zavodları və müdafiə istehkamlarının tikintisini həyata keçirdi. Ərdəbil, Abbasabad, Xoy, İrəvan, Təbriz şəhərlərinin müdafiə sistemi yenidən quruldu. Təbrizdə, həmçinin zabit-mühəndis kadrlarının hazırlanması üçün politexnik məktəb inşa edildi. Abbas Mirzənin özü də bu məktəbin ilk tələbələrindən oldu. Abbas Mirzənin şəxsən özünün seçdiyi bir neçə istedadlı gənc təhsil almaq üçün Avropa ölkələrinə göndərildi. İsfahanda kapitan Fabye və Rebul bir tərəfdən top istehsalı zavodunun tikintisini həyata keçirir, digər tərəfdən süvari qoşun hissələrinə təlimlər keçməklə məşğul idilər. Fransalı zabitlər eyni zamanda İranın müxtəlif vilayətlərinə səfərlər edərək, fransızların Hindistana keçid marşrutlarını araşdırırdılar.

1808-ci ilin mayında Fətəli şah Napoleona Qardan missiyası, ruslarla müharibədəki son vəziyyət, Qudoviçin fəaliyyəti, qacar elçisi Əskər xan Əbdülməliki Əfşarın Fransaya göndəriləcəyindən bəhs edən bir məktub göndərdi (12; a). Urmiyalı Əsgər xan Əbdülməliki Əfşar 1808-ci ilin iyulunda Parisə çatdı və sentyabrda Sen-Kloda Napoleon tərəfindən qəbul edildi. O, 1808-1810-cu illərdə İranın Fransadakı səfiri kimi fəaliyyət göstərdi.

Fransa-İran yaxınlaşmasından ciddi narahatlıq keçirən İngiltərə hökumətinin nümayəndəsi Harford Cons şah hökumətinə müraciət edərək, öz hökumətinin 1801-ci il İngiltərə-İran müqaviləsinin şərtlərinə sadiq qalacağına təminat verdiyini bildirdi. Eyni zamanda Osmanlı dövləti ilə də münasibətlərinin gərginləşdiyini və müharibə həddinə çatdığını görən rus komandanlığı da qacarlarla sülh bağlamaq, hətta mümkün olarsa, onu Osmanlılara qarşı müharibəyə sövq etmək üçün səy göstərməyə başladı. Əslində, İran hökuməti, bir tərəfdən də İngiltərə və Fransanın müdaxiləsi ilə güzəştlərə ümid bəsləyərək sülh bağlamaq istəyirdi. Qardan 1808-ci il sülh danışıqlarının gedişində vasitəçilik etdi. Lakin tərəflər arasındakı narazılıqlar nəticəsində bu danışıqlar uğursuz nəticələndi. Digər tərəfdən, 1807-ci ildə Fransanın özünün də Rusiya ilə yaxınlaşması və tərəflər arasında Tilzit müqaviləsinin imzalanması bütün diplomatik münasibətlərdə dönüş yaratmaqla, Fransa-İran müna-

sibətlərində də soyuqluq yaratdı. Tilzit müqaviləsi hələ Qardanın Fransadan İstanbula hərəkəti zamanı imzalandığından o, İrana çatanda bu haqda xəbərsiz idi. Onu Fransa Xarici işlər naziri Taleyran, şah hökumətini isə Qafqazdakı rus qoşunlarının baş komandanı Qudoviç məlumatlandırdı (Əmini, 1999; 130, 136).

Yaranmış vəziyyətdə İngiltərə hökuməti 1808-ci ilin mayında öz nümayəndəsi C.Malkolmu yenidən İrana göndərdi. İrana müharibəni davam etdirmək üçün İngiltərə tərəfindən hərbi və maliyyə yardımı göndəriləcəyini bildirən C.Malkolmu şah qəbul etmək istəməsə də, onun şah sarayının Fransa yönümlü siyasət aparacağı təqdirdə Fars körfəzindən hücuma məruz qalacağı, Zənd sülaləsinin İran taxt-tacına iddialı nümayəndəsinin himayə ediləcəyi, əfqan və vəhhabilərin İrana qarşı çıxışlarının təşkil ediləcəyini və iranlı tacirlərin Hindistanda ticarət fəaliyyətinə qadağa qoyulacağı kimi təhdidləri (Kuznetsova, 1983; 37) qarşısında iki böyük dövlət arasında “balanslaşdırılmış siyasət yeritməyə” məcbur oldu. Şah general Qardana ölkəsinin Fransa ilə münasibətləri kəsmədiyini, lakin nə qədər ki Fransa hökuməti Finkenşteyn müqaviləsinin şərtinə əməl edərək Rusiyanı Gürcüstanı İrana qaytarmağa məcbur etmir, İngiltərə ilə də münasibətləri kəsməyəcəyini bildirdi. Artıq İranda qalmağın mümkünsüzlüyü qarşısında Qardan Napoleonun əmrini gözləmədən (buna görə o, Napoleon tərəfindən sərt tənqid edildi) 1809-cu ilin fevralın 13-də Tehranı, apreldə İranı tərk etdi. Napoleonun münasibətləri bərpa etmək üçün Felix Lajarı Müvəqqəti işlər vəkili təyin etməsi də vəziyyəti dəyişmədi. 1810-cu ildə Əsgər xan da Parisdən geri çağırıldı. Əslində, Abbas Mirzə və Mirzə Şəfi Joberlə münasibətləri hələ də davam etdirirdilər. Əmininin sözlərinə görə “əgər 1812-ci il Fransa-Rusiya müharibəsi Napoleonun qalibiyyəti ilə nəticələnsəydi, Fransa-İran münasibətlərində yeni perspektivlər açа bilərdi” (Əmini, 1999; 227). Bundan sonra Fransa-İran münasibətləri uzun müddət qeyri-rəsmi kanallarla – Davud Məlik Şahnəzərov (İsfahanda anadan olmuş, təhsil almaq üçün Fransaya getmiş erməni əsilli bu şəxs Napoleonun elçisi kimi 2 dəfə İrana göndərilmiş, 1806-1817-ci illərdə İranın Fransadakı nümayəndəsi olmuşdur), Abbas Mirzənin ordusundakı fransız zabitləri və şahın sarayında fəaliyyət göstərən fransız tərbiyəçi Madam de la Marine vasitəsilə saxlanılırdı. 1815-ci ildə Burbonların restovrasiyasından sonra bəzi diplomatik addımlar qeydə alındı: Fətəli şah Fransa kralı XVIII Luiyə (1815-1824) məktub yazaraq taxta çıxması münasibətilə təbrik etdi. (12; b) İran Xarici işlər naziri Mirzə Əbülhəsən xan İlçi Londona gedərkən 1819-cu ildə qısa müddət Parisdə də olmuş, Fətəli şahın Fransa ilə dostluq münasibətlərini bərpa etmək arzusunu ifadə etdiyi məktubunu kral XVIII Luiyə təqdim etmişdir (12; c). Lakin ümumilikdə bu addımlar elə bir nəticə verməmiş, tərəflər arasında münasibətlər qeyri-rəsmi müstəvidə mövcud olmuşdur.

Beləliklə, XIX əsrin əvvəlləri Fransa-İran münasibətlərində yeni mərhələ olmaqla, Fransa imperatoru Napoleon Bonapartın Avropa və Şərqdə hegemonluq uğrunda apardığı mübarizə ilə bağlı İrana artan siyasi marağı, eyni zamanda Qacar İranının da, ilk növbədə, ən böyük düşməni Rusiya ilə müharibələrdə özünə güclü müttəfiq axtarışı zərurətindən doğmuşdur. Bu münasibətlər tərəflər arasında siyasi, iqtisadi və hərbi-müdafiə məsələlərinə həsr olunmuş müqavilələrin imzalanması ilə rəsmiləşdirilmiş, müəyyən sahələrdə öz nəticəsini də göstərmişdir. İrana gəlmiş fransız mütəxəssislərinin köməyi ilə müəyyən islahatlar həyata keçirilmişdir. Lakin əvvəlcə Napoleonun Fransanın dövlət maraqlarına xidmət edən xarici siyasət xətti ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, sonradan isə onun özünün məğlub edilib, siyasi meydandan kənarlaşdırılması ilə Fransanın İranda nüfuz mübarizəsi tamamilə zəifləmiş, şah hökuməti yenidən İngiltərə ilə yaxınlaşmağa başlamışdır. Yalnız XIX əsrin 30-cu illərində Məhəmməd şah Qacarın (1834-48) və kral Lui Filippin (1830-1848) dövründə ingilislərin Herat kampaniyası (1837-38) səbəbindən onlarla münasibətləri pozulan şah hökuməti Mirzə Hüseyn xan Nizamüddövləni müzakirələr aparmaq üçün Fransaya göndərmiş, bu elçilik nəticəsində iki ölkə arasında rəsmi münasibətlər yenidən bərpa edilmişdir.

## ƏDƏBİYYAT


1. Əminə Pakrəvan. Abbas Mirzə və Azərbaycan. Bakı, “Qanun”, 2007
2. Nəcmi N. Abbas Mirzə. XIX əsr Rusiya-İran münasibətləri. Bakı, “Yazıçı”, 1993
3. Иванов М.С. Очерки истории Ирана. Москва: Издательство МГУ, 1977
4. История XIX века. Под редакцией Э.Лависса, А.Рамбо. Перевод с французского и ответственный редактор Е.В.Тарле. В 8 томах. Том II. Москва, 1938
5. Н.А.Кузнецова. Иранв первой половине XIX века. Издательство “Наука”. Москва, 1983.
6. Iradj Amini. Napoleon and Persia. Franco-Persian relations under the first empire. Mage publishers Washington, DC, 1999.
7. P. Amèdèe Jaubert. Voyage en Armènie et en Perse, fait dans les anèes 1805 et 1806. Paris, 1821.
8. Correspondance de Napolèon. NAPOLEON Histoire du Consulat et du Premier empire by Robert Ouvrard:

*a*) https://www.napoleon-histoire.com/correspondance-de-napoleon-fevrier1805/2/

***b)***https://www.napoleon-histoire.com/correspondance-de-napoleon-mars-1805/5/

*c*)https://www.napoleon-histoire.com/correspondance-de-napoleon-janvier- 1807/5/

***d)***https://www.napoleon-histoire.com/correspondance-de-napoleon-avril-1807/6/

***e)***http://www.histoire-empire.org/correspondance_de_napoleon/1807/mai_01.htm

9. سعید نفیسی. تاریخ اختماعی و سیاسی ایرن در دورهٔ معاصر. تهرا، ۱۳۸۳ /1963.

10. منتشرشده.فرانسه و حکومت قاجارتصویر عهد نامه فین کن اشتاین منعقده بین امپراطوری. دسامبر 8، 2011
https://theotherwaytothink.wordpress.com/2011/12/08/تصویر-عهد-نامه-فین-کن-اشتاین-منعقده-بین

**11. *a)***http://www.asnad.org/en/document/158/

***b)***http://www.asnad.org/en/document/159/

***c)***http://www.asnad.org/en/document/160/

**12.**http://navidhistory.blogfa.com/post/14



### *Резюме*

***Фарах Керимова***

***Новый этап вфранко-иранских отношениях***
***в началеXIX века***

***Ключевые слова**: Иран, Франция, Пьер Амади Жобер,Финкенштейнский договор, Гардан*

Начало XIX века - это исторический период, когда Иран установливал и развивал свои отношения с Европейскими государствами, основанные на взаимные политические и дипломатические интересы. Это страна - находящийся ввыгодномадминистративном и стратегически-географическом положении,занимала важное место в колониальной политикеАнглии и Франции, двух велихих государств Европы, сильно соперничиющие за завоеваниегегемонии и новыесферы влияния. Эти государства, придающие большое значение Индийскому вопросу в своих внешних политиках были заинтересованы в установлении дипломатических отно-

шений с Ираном, играющий роль "вороты" в Индию. В это время находящийся в состоянии войны с Россией Иран с целью нахождения союзников против России был заинтересован в устонавлении политических отношений с Англией и Францией. Несмотря на изменчивость занимаемого положения указанных государств по отношению к Ирану зависел от общего международного положения, но характерэтих отношений не менялся никогда. Иранское государство подписавший первый союзнический договор с Англией, учитывая не выполнения своих обязательств по договору этимгосударством, приблизился к Франции. Состоялся обмен послами между ними, а после подписанияв 1807 году Финкенштейнскогодоговора дипломатическиеотношения между ними приобрел юридический статус. Однако после подписания Тильзитского договора в 1807 году междуФранцией и Россией в отношениях наступило холодное время. В 1811 году прервались официальные отношения. Вместе с этим, французские специалисты приехавшие в Ирансыгралибольшую роль в переоброзовании иранской армии по европейскомуобразцу.

***Summary***

***Farah Karimova***

***The new stage of the Franco-Iranian relations at the beginning of the xıx century***

***Key words:*** *Iran, France, Pierre Amadee Jaubert, the treaty of Finckenshtein, Gardane*

The beginning of the XIX century is characterised by emergence and development of Iran's relations with European countries in terms of mutual political and diplomatic interests. This country, located on a favorable administrative and strategic-geographical position of the Middle East, was an important part of the colonial policies of Britain and France, who actively fought for hegemony in Europe and to gain new spheres of authority. These two countries, attaching great importance to the Indian issue in their foreign policy, were interested in establishing diplomatic relations with Iran, which plays the role of a "door" on the way to India. Iran, which at that time was in war situation with Russia, was also interested in political relations with Britain and France thinking to get an ally against Russia. The attitude to Iran has changed depending on the international situation, but the nature of these relations has not changed. The Iranian government, which firstly signed an agreement with England, soon approached France, due to the reason for England's failure to follow up on its obligations under the agreement. Ambassadors exchanged between Iran and France and the Treaty of Finckenstein was signed in 1807, and diplomatic relations between the two countries gained the juridical status. But soon after the signing of the French-Russian Treaty of Tilsit in 1807, Franco-Iranian relations began to cool down, and official relations were interrupted in 1811. Nevertheless, the French specialists who came to Iran played a large role in restoring the Iranian army in the European mode.